<table>
<tr><td rowspan="9">Ümumi məlumat</td><td>Fənnin adı, kodu və kreditlərin sayı</td><td>Moda dizaynı</td></tr>
<tr><td>Departament</td><td>Memarlıq və Dizayn Departamenti</td></tr>
<tr><td>Proqram (bakalavr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2024/2025-cü tədris ilinin payız semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim</td><td>Ləman İbrahimova</td></tr>
<tr><td>E-mail:</td><td>leman.necef888@gmail.com</td></tr>
<tr><td>Telefon:</td><td>+994 50 529 05 55</td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td>Xəzər Universiteti, Neftçilər filialı<br>V gün 11:50-13:20    14:00-15:30</td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Tələbələrlə razılaşdırılan vaxtlarda</td></tr>
<tr><td>Prerekvizitlər</td><td colspan="2">-</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi,seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Dərsliklər və əlavə ədəbiyyat</td><td colspan="2">1. Иллюстрированная Энциклопедия Моды. Л.Кибалова, О.Гербенова, М.Ламарова.<br>2. Современная энциклопедия. Мода и стиль. 2002.<br>3. Figure drawing for fashion desing. Elizabetta Drudi, Tiziana Paci. 2001.<br>4. Das Kostüm in Rubland 18. Bis Anfang 20.Jahrhundert. Aurora·Kunstverlag·Leningrad.<br>5. Красота в изгнании. Александр Василъев. 2004.<br>6. История моды в XX веке. Найджел Которн. 1998.<br>7. Azərbaycan Milli Geyimləri.  Sabirə Dünyamalıyeva. 2002.<br>8. Ornament. Dərs vəsaiti. “Nasir”. Sabirə Dünyamalıyeva. 2014.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Fənnin öyrənilməsi auditoriyalarda mühazirələrin oxunması, praktiki məşğələlərin aparılması və fənn müəllimi tərəfindən tələbələrə verilmiş mövzular üzrə sərbəst işlərin yerinə yetirilməsi ilə həyata keçirilir.<br>Bu mövzuları öyrənməklə tələbələr geyimin yaradılmasında hər növ parçalardan, materiallardan və düzgün rəng seçimlərindən istifadə edərək və proporsiyaları nəzərə almaqla tam şəkildə ideyalarını təqdim etmək üzrə nəzəri və praktik biliklər əldə edəcəklər.</td></tr>
<tr><td>Kursun məqsədi</td><td colspan="2">Fənnin məqsədi:<br>“Moda dizaynı” fənninin tədrisinin əsas məqsədi – moda sahəsində yeniliklərin axtarışı, yeni obrazlar və siluetlər yaratmaqdır. Tələbələrin konseptual mövzular seçərək öz fikir və xəyallarını reallaşdırmaq, öz bacarıqlarını və praktiki biliklərini düzgün şəkildə nümayiş etdirə bilməkdir.<br>Moda sahəsində fərdiliyini və üslubunu böyük kütlələrə nümayiş etdirərək öz sözünü deyə bilməkdir.<br>Geyimlərdə istifadə olunan materiallarda yeni texnologiyaların axtarışı, parçalarda fərqli print və rənglərdən istifadə etmək bacarığının mənimsənilməsi.<br>Tələbələrin moda sahəsində moda dizaynının əsaslarını mənimsəməsinə, fənnin tədrisində verilən nəzəri və praktik biliklərə yiyələnməsinə və öz sahələrinin</td></tr>
</table>

<table>
<tr><td></td><td colspan="3">tələblərinə peşəkarlıqla cavab verməsinə kömək etməkdir.<br>Bütün bunlardan əlavə tələbələr keçilən mövzular barədə layihə-eskiz və final layihələri hazırlamalı və təqdim etməlidirlər. Bu proses tələbələrə özlərini ifadə etmək, bacarıqlarını nümayiş etdirmək və gələcək məqsədlərinə çatmaqda kömək etmək üçün dəyərli vasitə təqdim edir.</td></tr>
<tr><td>Tədrisin nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr aşağıdakı vacib amilləri bilməli-dirlər:<br>• Eskizlərin hazırlanmasının əsaslarını;<br>• Yaradılan obraza uyğun proporsiya qaydalarına əməl etməyi, rəng duyumu (ahəngi), parça fakturalarını öyrənməyi;<br>• Praktik məşğələlərə hazırlıqlı olmalı və texnikasını;<br>• Geyim tarixini öyrənməlidirlər;<br>• Azərbaycan milli geyimləri haqqında;<br>• Müasir geyim tarixini (XX – XXI əsrlər).<br>bacarmalıdırlar:<br>• Dizayner kimi düşünməyi;<br>• Layihənin işlənməsini, tədqiqatçılıq qabiliyyəti olmalı;<br>• Seçilmiş mövzu və konsepsiyaya uyğun kompozisiya və obrazların necə hazırlanmasını;<br>• Layihənin hazırlanmasına başlamazdan əvvəl bütün lazımi məlumatları diqqətlə təhlil etməyi.</td></tr>
<tr><td rowspan="4">Tədris metodları</td><td>Mühazirə</td><td colspan="2">Tələbələrə mövzu ilə bağlı mühazirə oxunur.</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td colspan="2">Tələbələrin keçdiyi mövzuları daha yaxşı başa düşməsi və yadda saxlaması üçün mütəmadi olaraq müzakirələr aparılır.</td></tr>
<tr><td>Praktiki tapşırıqlar</td><td colspan="2">Tələbələrin mühazirə zamanı əldə etdikləri bilik və bacarıqları təkmilləşdirmək üçün praktiki məşğələlər keçirilir.</td></tr>
<tr><td>Praktiki məsələnin təhlili</td><td colspan="2">Tələbələrin mövzuları nəzəri cəhətdən nə dərəcədə mənimsədiklərini və dizayner kimi düşünərək verilən tapşırığı praktiki olaraq hansı səviyyədə yerinə yetirə biləcəklərini başa düşmək üçün vaxtaşırı sual-cavab edilir, tez həll oluna bilən kiçik həcmli tapşırıqlar əsasında müzakirələr aparılır.</td></tr>
<tr><td rowspan="7">Qiymətləndirmə</td><td>Komponentlər</td><td>Tarix/son müddət</td><td>Faiz (%)</td></tr>
<tr><td>Davamiyyət</td><td></td><td>5</td></tr>
<tr><td>Fəallıq</td><td></td><td>15</td></tr>
<tr><td>Tapşırıq</td><td></td><td>15</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td></td><td>30</td></tr>
<tr><td>Final imtahanı</td><td></td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>Qaydalar (Tədris siyasəti və davranış)</td><td colspan="3">Mühazirə, seminar-məşğələ, təqdimat<br>Geyim tarixi və müasir geyim tendensiyaları – üzrə mühazirələr fənn müəllimi tərəfindən tədris olunur.<br>Seçilmiş mövzu əsasında müəllim praktiki tematikaya aid 2-3 dərsdən birini hazırlayacaqdır. Tələbələr verilmiş tapşırıqları fərdi qaydada yerinə yetirib, dərsdə təqdim etməlidirlər. Buna nail olmaq üçün tələbə:<br>▪ Seminar - məşğələnin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;<br>▪ Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;</td></tr>
</table>

- Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
- Seminar - məşğələdə müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
- Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Kurs başa çatdıqdan sonra tələbələr öz fərdi layihələrini təqdim etməlidirlər. Tələbənin işi semestr ərzində verilən tapşırığın işlənilməsində olan fəallığına görə dəyərləndirilir.

**Aralıq (30 bal) və final (35 bal)** imtahanında qiymətləndiriləcəkdir.

Praktiki tapşırığın (təqdimatın) mütləq tələbə tərəfindən təqdim edilməsi tələb olunur. Bu tapşırığın məqsədi – gələcək dizaynerlərin təqdimetmə, qısa müddət ərzində kiçik araşdırmalar aparmaq və öz layihələrini tərtib etmək vərdişlərinə yiyələnməsidir.

**Aralıq imtahanından** əvvəl oktyabr və noyabr ayları ərzində tapşırıq təhvil verilməlidir. **Sonuncu dərs həftəsindən sonra tapşırığı təhvil vermək üçün əlavə vaxt verilmir.** Tələbələrin praktiki işlərinin təhvili **imtahan** günü təyin olunur, qiymətləndirmə departamentin təyin etdiyi komissiya tərəfindən aparılır.

**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzürlü səbəbdən (ailə vəziyyəti və səhhəti ilə bağlı) təslim işində iştirak edə bilməyəcəyi barədə məlumat vermişsə və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim etmişsə, yalnız bu halda tələbə tapşırığı gec təslim edə bilər.

**Davamiyyət**

Dərslərə davamiyyətə görə verilən maksimum bal – 5 baldır.

Balların miqdarı əsasən bu hallarda hesablanır: tələbə semester ərzində fənn üzrə bütün dərslərdə iştirak etdikdə ona 5 bal verilir. Fənn üzrə semestr ərzində buraxılmış dərs saatlarının ümumi sayı normativ - 25%-dən, müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə imtahan sessiyasına buraxılmır və onun haqqında müəyyən qərar qəbul edilir.

**İmtahan**

Aralıq imtahan oktyabr və noyabr aylarında tədris olunan mövzular üzrə verilən praktiki **tapşırığın,** final imtahanı isə mart və aprel aylarında tədris olunan mövzular əsasında praktiki **tapşırığın** təhvil verilməsi ilə keçiriləcəkdir.

**Fənni bitirmək qaydası**

Tələbənin biliyi maksimum 100 balla qiymətləndirilir. Kursu bitirmək üçün ümumi müvəffəqiyyət səviyyəsi 60% və daha yuxarı hesab edilir. Tələbə bu uğuru qazanmazsa, növbəti semestrdə yaxud növbəti ildə bu fənni təkrar götürə bilər.

**Tələbənin davranış qaydaları**

Tələbə Universitetin daxili intizam qaydalarını poza bilməz və mobil telefondan istifadə etməsinə icazə verilmir. Dərs prosesini və etika qaydalarını pozmaq qadağandır. Həmçinin dərs zamanı tələbələr arasında icazəsiz müzakirələr qadağandır.

| CƏDVƏL (dəyişdirilə bilər) | | | |
|---|---|---|---|
| **HƏFTƏ** | **TARİX** | **FƏNNİN MÖVZULARI** | **DƏRSLİKLƏR/TAPŞIRIQLAR** |
| 1 | 20.09.2024<br>20.09.2024 | Moda nədir? Modanın tarixi haqqında ümumi məlumat və tendensiyaların yaradılması | 1. Иллюстрированная Энциклопедия Моды. Л.Кибалова, О.Гербенова, М.Ламарова. Стр. 9;.37-307.<br>2. Современная энцикло-педия. Мода и стиль. 2002. Стр. 1-3; 12-20; 216-221/ Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 2 | 27.09.2024<br>27.09.2024 | Eksizlərin yaradılması texnikasının öyrənilməsi, proporsiyalar. (Mövzu praktik olduğundan ev tapşırığı əsasında verilir) | 1. Figure drawing for fashion desing. Elizabetta Drudi, Tiziana Paci. 2001.<br>2. Das Kostüm in Rubland 18. Bis Anfang 20.Jahrhundert. Aurora·Kunstverlag·Leningrad. Səh. 18-20;<br>3. Современная энцикло-педия. Мода и стиль. 2002. Стр. 235-268 / Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 3 | 04.10.2024<br>04.10.2024 | Seçilmiş mövzuya uyğun kompozisiyanın yaradılması. Kompozisiyanın əsasları, quruluşu və rənglərin seçilməsi | 1. Figure drawing for fashion desing. Elizabetta Drudi, Tiziana Paci. 2001./ Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 4 | 11.10.2024<br>11.10.2024 | Rənglərin öyrənilməsi, rəng çalarları, soyuq və isti rəng tonlarının geyimlərdə istifadəsi qaydaları | İnternet materialları /Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 5 | 18.10.2024<br>18.10.2024 | Yaradılmış eskizlərə və obrazlara uyğun parçaların seçilməsi və fakturaların öyrənilməsi qaydaları | Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 6 | 25.10.2024<br>25.10.2024 | Mövzu əsasında yaradılmış eskizlərə və obrazlara uyğun kolleksiyaların yaradılması və istifadə olunacaq parçaların (materialların) seçilməsi | Toplanmış materiallar əsasında. / Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 7 | 01.11.2024<br>01.11.2024 | Sərbəst mövzu seçib kollajlar hazırlamaq. Müxtəlif parçalar, materiallar və hazır şəkillərdən (jurnallardan) istifadə edərək obrazlar seçmək və kompozisiya hazırlamaq | 1.İnternet materialları / Mövzu əsasında praktiki tapşırığın işlənilməsi<br>2. Современная энцикло-педия. Мода и стиль. 2002. Стр.20-30., 2-ая глава<br>2. Красота в изгнании. Александр Васильев. 2004. |
| 8 | 08.11.2024<br>08.11.2024 | Bayram | |
| **9** | 15.11.2024 | **ARALIQ İMTAHANI** | |

| CƏDVƏL (dəyişdirilə bilər) | | | |
|---|---|---|---|
| **HƏFTƏ** | **TARİX** | **FƏNNİN MÖVZULARI** | **DƏRSLİKLƏR/TAPŞIRIQLAR** |
| 10 | 22.11.2024<br>22.11.2024 | Dünya geyim tarixinin öyrənilməsi.<br>Geyim tarixinin memarlıq, incəsənət, siyasi həyatla sıx əlaqəsi və inkişafı<br><br>Müasir moda tarixi və inkişafı. İlk kutüryelərin yaranması və modanın incəsənətin bir növünə çevrilməsi. II Dünya müharibəsi dövründə moda evlərinin fəaliyyəti | 1. История моды в XX веке. Найджел Которн. 1998;<br>2. Иллюстрированная Энциклопедия Моды. Л.Кибалова, О.Гербенова, М.Ламарова. Səh.307.<br>3. Современная энциклопедия. Мода и стиль. 2002. Стр.221-233. Стр.235-268 |
| 11 | 29.11.2024<br>29.11.2024 | Azərbaycan milli geyim tarixi. Milli geyimlərin bölgələrə görə fərqləri və xüsusiyyətləri. İstifadə olunan parçalar, aksessuarlar və ornamentlər | 1. Azərbaycan Milli Geyimləri. Sabirə Dünyamalıyeva. 2002.<br>2. Ornament. Dərs vəsaiti. “Nasir”. Sabirə Dünyamalıyeva. 2014. |
| 12 | 06.12.2024<br>06.12.2024 | Azərbaycanda müasir moda tarixi və moda evlərinin yaranması | Toplanmış materiallar əsasında. |
| 13 | 13.12.2024<br>13.12.2024 | Son kompozisiyaların planşetlərdə hazırlanması və yaradılmış obrazlar haqqında ətraflı məlumatın izahı | |
| 14 | 20.12.2024<br>20.12.2024 | Seçilmiş mövzuya əsasən kompozisiyada bir obrazı şeçərək geyim formasında təqdim etmək | Mövzu əsasında praktiki tapşırığın işlənilməsi |
| 15 | 27.12.2024<br>27.12.2024 | İşlərin tamamlanması, kompozisiyası və vizual həllinin həyata keçirilməsi. Bədii ifadə vasitəsi kimi geyimdə proporsiya və parça fakturasının rolu. İdeya və konseptə uygun olan seçimlərin həllinin təqdim edilməsi | Tapşırıqların tamamlanması |
| **FİNAL İMTAHANI** | | | |

**Dosent Abbasova Ş.A.**

**Təsdiq edir:** ________________________________

Memarlıq və dizayn departamentinin rəhbəri